2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 noyabr 2015-ci il tarixli 141 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 6 noyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 52 saylı Quba seçki dairəsi üzrə namizədliyi özü tərəfindən irəli sürülmüş və qeydə alınmış İsayev Zahir Qəzənfər oğlunun 2015-ci il noyabrın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq müraciət ekspert qrupunun üzvü tərəfindən ilkin olaraq nəzərdən keçirilərkən müəyyən edilmişdir ki, müraciət aidiyyət qaydalarının pozulmasi ilə daxil olmuşdur.

Müraciətdə dairə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinə dair protokolların namizədə verilmədiyi bildirilərək seçkinin nəticələrinin ləğv olunması və protokolların surətlərinin ona verilməsi xahiş edilmişdir. Eyni zamanda bildirilmişdir ki, bundan əvvəlki müraciətinə də cavab verilməmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmişdir.

Müraciətlə bağlı dairə seçki komissiyasından təqdim olunmuş arayışdan müəyyən edilir ki, dairə seçki komissiyasının 5, 48 və 54 saylı seçki məntəqələrində səsvermə prosesi namizədin təyin etdiyi üç müşahidəçi və iki vəkil edilmiş şəxs tərəfindən əvvəldən axıradək müşahidə edilmişdir. Namizədin özü, müşahidəçiləri və vəkil edilmiş şəxsləri tərəfindən səsvermə və səsvermənin nəticələrinin hesablanmasına dair hər hansı bir pozuntu barədə məntəqə və dairə seçki komissiyasına müraciət edilməmiş, səsvermənin nəticələrinə dair protokolların surətləri tələb edilməmişdir.

Namizədin əvvəlki müraciətlərinə cavab verilməməsi ilə bağlı iddiası araşdırma ilə öz təsdiqini tapmamışdır. Belə ki, onun tərəfindən Mərkəzi Seçki Komissiyasına ünvanlanmış 30 oktyabr 2015-ci il tarixli teleqramına komissiyanın katibinin imzası ilə 31 oktyabr 2015-ci il tarixli 10/20-823 saylı cavab məktubu göndərilmişdir.

Namizədin seçkinin nəticələrinin ləğv edilməsi tələbi ilə əlaqədar qeyd edilməlidir ki, müraciətdə dairənin əhatə etdiyi seçki məntəqələrində seçki

qanunvericiliyinə uyğun olaraq səsvermənin nəticələrinin ləğv edilməsinə əsas ola biləcək hər hansı bir pozuntu barədə konkret faktlara söykənən sübutlar göstərilməmiş, ümumi şəkildə nəticələrlə razılaşmadığı bildirilmişdir. Belə olan halda müraciətin həmin hissədə təmin edilməsi üçün hüquqi əsaslar olmadığından müraciət həmin hissədə təmin edilməməlidir.

Qeyd olunanlara əsasən müraciət qismən, səsvermənin nəticələrinə dair protokolların surətlərinin namizədə verilməsi hissəsində təmin edilməli, seçkinin nəticələrinin ləğv edilməsi hissəsində isə əsassız olduğundan təmin edilməməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 52 saylı Quba seçki dairəsi üzrə qeydə alınmış namizəd İsayev Zahir Qəzənfər oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 noyabr 2015-ci il tarixli 141 saylı müraciəti qismən təmin edilsin, səsvermənin nəticələrinə dair protokolların surətlərinin namizədə verilməsi dairə seçki komissiyasına həvalə edilsin.

2. Müraciət seçkinin nəticələrinin ləğv edilməsi hissəsində əsassız olduğundan təmin edilməsin.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov